# Həqiqətən Allah sizin zahirinizə, var-dövlətinizə yox, qəlblərinizə və əməllərinizə baxar

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət edilir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: Həqiqətən Allah sizin zahirinizə, var-dövlətinizə yox, qəlblərinizə və əməllərinizə baxar.
[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bildirir ki, uca və pak olan Allah qulların zahiri görünüşlərinə və bədənlərinə baxmaz ki, onlar gözəldir və yaxud eyiblidir, böyükdür yoxsa kiçikdir, sağlamdır və yoxsa xəstədir ? Həmçinin onların mal-dövlətinə da baxmaz ki, çoxdur və ya azdır? İzzət və cəlal sahibi olan Allah qullarını bu meyarlara və fərqliliklərə görə hesaba çəkib qınamaz. Əksinə onların qəlblərinə, qəlblərindəki yəqinliyə və təqvaya, səmimiliyə və ixlasa baxar, həmçinin qəlblərindəki riyakarlıq və şan-şöhrət meyillərinə, əmməllərin doğru olub olmamasına baxar. Buna əsasən də mükafat və ya cəza verər.



النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee